Xalq qəzeti .- 2022.- 13 dekabr.

# Heydər Əliyev – son iki əsrin parlaqlıq səltənəti



**Bütün varlığı, ruhu, duyğuları ilə Azərbaycan olan, ömrünün 34 ilini milli dövlətçilik ideologiyasının inkişafına həsr edən, dövlət müstəqilliyimizin memarı ulu öndər Heydər Əliyev təkcə milli-mənəvi dəyərlərimizin inkişafına töhfələr vermədi. Həmçinin milli mənlik və milli kimlik şüurumuzun inkişafına təkan verdi. Ümummilli lider genişmiqyaslı layihələri, çoxşaxəli fəaliyyəti ilə hər bir azərbaycanlının ruhuna, duyğusuna vətənpərvərlik toxumları səpdi. 2003-cü ilin dekabrında Vətəndən çox-çox uzaqlarda, Amerika Birləşmiş Ştatlarında dünyasını dəyişən Heydər Əlirza oğlu Əliyevin son nidası da "Azərbaycan" oldu! Ömrü boyu ağrısını, kədərini çiyinlərinə alıb dünyanın dörd bir yanını dolandığı Vətəninə çiyinlərdə gəldi. Tikdiyi, qurduğu məmləkətinə, sevgili xalqına və dövlətinə son məqamda da birliyi, bütövlüyü öyrətdi.**

Qətiyyətlə söyləyə bilərik ki, ulu öndər Heydər Əliyev Azərbaycan xalqının son iki yüz ildə yetişdirdiyi ən parlaq şəxsiyyət, müstəsna liderlik keyfiyyətlərinə malik misilsiz dövlət adamıdır. Belə böyük dühaya sahiblik, heç də hər xalqa nəsib olan xoşbəxtlik deyil.

1990-cı ilin 20 Yanvar dəhşətlərindən sonra şəhidləri çiyninə alıb Çəmbərəkənd qəbiristanlığına qalxan Azərbaycan xalqı varlığı ilə ona şərəf gətirən, onu zamanın sərt sınaqlarından çıxaran liderini bağrının başında Fəxri xiyabana gətirdi. Adını daşıyan Binə Hava Limanında çiyinlərdə yerə enən, Respublika Sarayında milləti, məmləkəti ilə vidalaşan ulu öndər Fəxri xiyabanda torpaq sevgisinə qovuşdu. Azərbaycanın, Türk dünyasının, Şərqin müqəddəs ziyarətgahlarından birinə çevrildi. İndi hər gün bu böyük müqəddəsliyin ziyarətinə gəlirlər.

Milyonlarla insan Tanrının torpaq müqəddəsliyindən, daş ucalığından keçib haqqa doğru yol gedir! Bu yol insanlığı Tanrı dərgahına aparan ən qısa yollardan biridir. Tanrıdan boy alan, könüllərdən boylanan, Haqqa sığınan o yolun yolçusunu hər yerdə elçi, böyük azərbaycanlı, qüdrətli türk kimi etirafda bulunur, qəbul edirlər. Bunun üçün qürurlanmağa, bu müqəddəs ruhun sahibi ilə öyünməyə dəyər!

O, Nuhun çıxdığı torpaqdan qopan, Əshabi-Kəhf, Gəmiqaya müqəddəsliyindən keçən, Ağrıdağdan Tanrıdağına, Altaylardan Anadoluya, Çin səddindən Avropaya haray salan türkün Qaba ağac sevdası, Boz qurd dəyanəti, Bütöv Azərbaycan naminə qılıncı qələmə çevirən Sərkərdə-Xaqan ucalığıdır!

Adətən, şəxsiyyətləri tarix yetirir. Bütün zamanlarda tək-tək şəxsiyyətlər də olub ki, onlar tarixi yaradıblar. Tərəddüd etmədən deyə bilərik: onlardan biri, bəlkə də, birincisi Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevdir. Bu böyük şəxsiyyət 10 milyondan çox azərbaycanlı üçün müstəqil Azərbaycan dövlətinin memarı, yer üzünə səpələnmiş 50 milyondan artıq dünya azərbaycanlılarının həmrəyliyinin təminatçısıdır.

Heydər Əliyev həm də indi Müstəqil Dövlətlər Birliyini, Baltikyanı dövlətləri çevrələyən və bir vaxtlar SSRİ adlı bir dövlətdə yaşayan irili-xırdalı xalqlar və millətlər üçün əzizdir. Belə ki, 15 müttəfiq respublikanı əhatə edən bu nəhəng ərazidə elə bir guşə tapılmaz ki, Heydər Əliyevin İttifaq rəhbərliyi dövründə orada hansısa quruculuq işi aparılmasın.

Heydər Əliyev, eyni zamanda dünya miqyasında tanınmış böyük siyasi və ictimai xadim idi. Heydər Əliyev əzəmətli, bənzərsiz və təkrarsız insan, dahi şəxsiyyət idi. O, tarix yaradırdı. Çünki o, özü tarixin canlı bir salnaməsi, daha doğrusu, tarixin özü idi. Azərbaycan tarixinin uzun və şərəfli bir dövrü onun adı ilə bağlıdır. Tarixə qızıl hərflərlə həkk olunan bu ad bütün dillərdə eyni səslənir: Heydər Əliyev. Bu adın sahibi ilə hər bir azərbaycanlı iftixar hissi keçirir.

Millətinin şərəf, ləyaqət, məmləkətinin cəsarət rəmzi olan bu qüdrətli şəxsiyyətlə əlində Quran, ruhunda Turan olan hər bir müsəlman, türk də qürur duyur. Çünki o, iman sahibi idi. Kamili cahildən ayırır, haqqa bələdçilik edirdi. O, Avropa qiyafəli Şərq mütəfəkkiri idi. Bəşəriyyəti birliyə, qardaşlığa çağırırdı. Dünyanı Odlar yurdunun oduna, işığına tapındırdığı kimi, Tanrının ona bəxş etdiyi ömür payını da millətinin, məmləkətinin, bəşəri dəyərlərin eşqinə şama çevirirdi. Hücumlara, səlib yürüşlərinə, repressiya və müharibələrə baxmayaraq, bu gün ayaqda olan, bayrağı bayraqlara qarışan Azərbaycan xalqı deyəndə Heydər Əliyev, Heydər Əliyev adı çəkiləndə Azərbaycan, Odlar yurdu – odun, eşqin Vətəni, məskəni, ərlərin-ərənlərin, pirlərin, övliyaların, ustad sənətkarların, el və dil bilicilərinin diyarı yada düşür.

Xalq, dövlət də insan kimidir, yaddaşı ilə yaşayır. Milli istiqlal, özgürlük sevdası, azərbaycançılıq, türkçülük, turançılıq məfkurəsi ilə müasir Azərbaycanın memarı olan, varisi ilə ən Yeni Azərbaycanın dastanını yaradan, harada yaşamasından, hansı vəzifədə çalışmasından asılı olmayaraq "azərbaycanlılığını, türklüyünü unutmayan", cəsarəti, ləyaqəti, bir türk, Azərbaycan kişisinə xas qeyrəti ilə tarix yaradan, həmin tarixə müdrikliyi, məğrurluğu ilə yazılan, "Azərbaycanın müstəqilliyi əbədidir, daimidir, dönməzdir", "Mən İlham Əliyevə özüm qədər inanıram", "Azərbaycan xalqının taleyi indi etibarlı əllərdədir" nidası ilə bizə güman – ona əyan dünyanın dərgahına çəkilən, millətinin yaddaş ünvanına çevrilən, bütün həyatını xalqına həsr edən, amalı, əməli, millət, məmləkət sevgisi ilə xariqələr yaradan ümummilli lider Heydər Əliyev sonda daşa, yaddaşa, sözə, səsə, nəfəsə köçdü. Canından artıq sevdiyi xalqı Azərbaycanın hər guşəsində adını əbədiləşdirdi, ona abidələr ucaltdı. Ulu öndərə ən böyük abidəni insanlar qəlbində, ürəyində ucaltdı. Yaddaş xalısına ilmə-ilmə, naxış-naxış toxudu, varaq-varaq oxudu.

Bu gün Azərbaycan bayrağı Şuşa qalasında, Xudafərin körpüsündə dalğalanır. Ulu öndərin nigaran getdiyi Qarabağ 44 günlük tarixi savaşdan sonra Zəfərin sevincini yaşayır. Möhtərəm Prezidentimiz, müzəffər Ali Baş Komandanın iradəsi ilə tikilib qurulan doğma diyarda nigaran ruhlar rahatlığa qovuşub. Bütün həyatını azərbaycançılıq məfkurəsinin təbliğinə həsr edən ulu öndərin Dünya azərbaycanlıları ilə bağlı düşüncələrinin gerçəkləşməsinə belə az qalıb. İndi Təbriz Bakı, Bakı Təbriz söyləyir!

***Şərəf CƏLİLİ***